# Azərbaycan bəstəkarlarına məxsus olan musiqi üslubu

**Zemfira Səlim qızı Sultanova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*
**E-mail:** зема_султанова@mail.ru

**Rəyçilər:** filol.ü.f.d,, dos. A.X. Ramazanova,
p.ü.f.d., dos. N.N. Abutidze

**Açar sözlər:** musiqi, prinsip, inkişaf, incəsənət, əsər
**Ключевое слова:** музыка, принцип, развития, искусство, работа
**Key words:** music, principle, development, art, work

Azərbaycan musiqisində yeni cığırların açılışı Üzeyir Hacıbəylinin adı ilə bağlıdır. O, şərq və qərb musiqi mədəniyyətləri arasında körpü sala bilmişdir. O, elə bir klassik bəstəkar idi ki, xalqın topladığı və saxladığı qiymətli musiqisini bütün dünyaya göstərə bilmişdi.

Hacıbəyov milli ifadə vasitələri arsenalına Avropa bəstəkarlarının yaradıcılıq vasitələrini gətirərək, Azərbaycan musiqisinin inkişaf perspektivini təmin etmişdir. Eyni zamanda, müxtəlif Avropa bəstəkarlıq məktəblərində ümumi qaydada qəbul olunmuş priyom və metodların zənginləşməsi üçün cığır açmışdır.

Üzeyir Hacıbəyli (1885-1948) peşəkar Azərbaycan musiqi mədəniyyətinin banisidir. XX əsrin birinci yarısında dünya musiqi mədəniyyətinin görkəmli nümayəndəsidir.

O, Azərbaycanda yeni musiqi mədəniyyətinin bünövrəsini qoyan şəxsiyyətdir. Bilavasitə onun adı şərq musiqisinin ümumbəşəri qiymətləndirilməsi ilə bağlıdır.

Üzeyir Hacıbəyov yaradıcılığında Azərbaycanın milli mədəniyyəti ilə dünya mədəniyyətinin nailiyyətləri bir sintez təşkil edir. “Onun yaradıcılığında olan novatorluq Azərbaycan xalqının səhnə və musiqi incəsənətinin dünya incəsənətinin nailiyyəti ruhunda dərk edilməsi nəticəsində baş vermişdi. Bu iki başlanğıcın dərin sintezində Hacıbəyov özünün milli üslubunu yaratmışdır” (1, 77).

Bəstəkar Qara Qarayev Ü.Hacıbəyov haqqında yazırdı: “O, çalışırdı özünün orijinal yaradıcı üslubunu yaratsın. Onun məqsədi xalq musiqisini istifadə edib onu xalqa yeni zənginləşmiş keyfiyyətdə qaytarmaq”. Bəstəkarın yetkin, yaradıcı üslubu milli musiqi “dilinin” bütün komponentlərinin bəstəkar yaradıcılığının əsaslı nailiyyətləri vasitəsilə peşəkar işlənməsindən ibarətdir. Hacıbəyovun əsərləri Azərbaycan xalq musiqisinin bütün janrlarının üslub cizgiləri ilə zəngindir (mahnı, rəqs, muğam, aşıq yaradıcılığı).

Bəstəkar milli ladları major-minorla orqanik birləşdirir. Hacıbəyov tərəfindən işlənmiş lad sistemi (onun öz yaradıcılığı buna əsaslanır) tarixi qiymət daşıdığı kimi, eyni zamanda müasir musiqi dili üçün də öz əhəmiyyətini saxlayır. “Hacıbəyov musiqisini dərin təhlili göstərir ki, bəstəkar mürəkkəb və zəngin lad sistemi işləyib hazırlamışdı və həmin sistemə sadiq idi.... Ü.Hacıbəyovun harmonik dilində xüsusi kəşflər olmasa da, bütövlükdə onun musiqisi müasirdir və dahi bəstəkarın özü müasir musiqi təfəkkürü sahəsində cürətli novatordur” (3, 14).

Ü.Hacıbəyova dəqiq və səliqəli formalar xasdır. O, fakturanın sadəliyinə və incəliyinə meyl edir. Hacıbəyovun əsərlərində melodiya xalq mahnıları ilə bağlıdır, eyni zamanda özünəməxsus intonasiya gözəlliyi və ifadəliyi ilə seçilir, və obrazlı emosional məzmunun ifadəsi üçün əsas vasitədir. Üzeyir Hacıbəyov musiqisi enerjilidir. Onun yaradıcılığında incə lirizmlə

epik genişlik və cəsurluq uzlaşır. O, insan qəlbinin dərinliklərinə "baş vurub", gözəl poetik hissləri tərənnüm etməyi bacarırdı. Məhz buna görə, Nizami və Füzuli yaradıcılığı onu cəlb edirdi. Bəstəkarın yaradıcılıq səhifələri yumoristik və bəzən satirik boyalarla zəngindir.

Xalqın musiqi irsini istifadə edərək onların musiqili-üslub xüsusiyyətlərini özünün yaradıcı prizmasından keçirdir. Bundan başqa o, lirik, satirik, yumoristik və etik xarakter başlanğıclarından və ümumi məzmundan bəhrələnir.

Üzeyir Hacıbəyov çalışırdı ki, xalq musiqisi Avropa musiqi formaları ilə sadə yolla birləşməsin, onların arasında orqanik bir sintez yaransın. Klassik musiqidə yaradılmış vasitələr xalq musiqi təfəkkürünün qanunlarına, ümumi quruluşuna tabe olsun.

"...Azərbaycan musiqisində özünü təsdiqləyən forma və janrlar arasında Üzeyir Hacıbəyovun adı ilə bağlı olmayanı qeyri mümkündür. Novator-bəstəkar həm nəzəriyyədə həmçinin praktikada bizim musiqinin bir çox üslub xüsusiyyətlərini müəyyənləşdirib ümumiləşdirə bilmişdir" (1, s. 5).

F. Əliyeva özünün tədqiqatında qeyd edir ki, Üzeyir Hacıbəyov xalq musiqisindən birbaşa sitat gətirməkdən imtina etdiyi halda, axtarışlarını xalqın musiqi təfəkkürünün xüsusiyyətlərini üzə çıxartmağına yönəldir və onun əsasında özünün üslubunu formalaşdırır.

Azərbaycan bəstəkarlıq məktəbini sütununu təşkil edən Üzeyir Hacıbəyov milli klassik üslubu yaradır. Məhz bu üslub Azərbaycan bəstəkarlıq məktəbinin sonrakı nəsli üçün çıxış nöqtəsi olmuşdur (Əliyeva F. "Azərbaycan musiqisində üslub axtarışları". Bakı, 1996).

30-cu illərin ikinci yarısında bəstəkarlıq yaradıcılığı xeyli aktivləşir. Cavan Q.Qarayev, C.Hacıyev, T.Quliyev, F.Əmirovun yaradıcılıq yolu başlanır. Onlar Üzeyir Hacıbəyovu özlərinin müəllimi adlandırırdılar.

Azərbaycan fortepiano musiqisi XX əsrin ikinci onilliyində yetişməyə başlamışdır. Azərbaycan fortepiano musiqisinin inkişafının başlanğıcında Asəf Zeynallı dururdu (1909-1932).

Azərbaycanda fortepiano musiqisi janrının meydana gəlməsi Asəf Zeynallının adı ilə bağlıdır. Onun əsərlərində milli fortepiano üslubunun əsas xüsusiyyətlərini görə bilirik və, birinci növbədə, xalq ladlarına istinad.

Onun musiqisi səmimidir, emosional cəhətdən həyəcanlıdır. Milli folklorun zəngin intonasiyalarına müraciət edərək o professional sənətkarlığı nümayiş etdirə bilir. A.Zeynallının fortepiano əsərlərində folklor iki cür istifadə olunur. Əsərlərin bir qismində melodiyaları bütövlükdə saxlanılır, digərlərində xalq musiqisinin ayrı-ayrı tərəfləri sərbəst dəyişdirilir. Azərbaycan ladlarının melodik Qanunauyğunluqlarını istifadə edərək eyni zamanda o, ənənəvi təkrarları ixtisara salaraq pyeslərə klassik repriza görkəmi verir.

Beləliklə, A.Zeynallı klassik üç hissəlini xalq lad quruluşu ilə üzvü surətdə birləşdirir. O, polifonik formalara da müraciət edir. Xalq mahnı mövzularına yazılmış iki fuqa instrumental musiqinin milli polifonik əsasını qoyur.

Xalq melodiyaları özlərinin spesifik səslənmələrini itirmədən klassik polifonik janrı ilə orqanik surətdə birləşirlər.

A.Zeynallı milli musiqidə kamera-vokal üslubunun banisidir. O, Azərbaycan vokal incəsənətində öz əsərləri ilə şəhsi-lirik və lirik-epik istiqamətini qoymuşdur.

İkinci dünya müharibəsi illərində fortepiano kamera musiqisi daha aktiv inkişaf edir. Üzeyir Hacıbəyovun "Cəngi", "Yaxşı yol", Qarayevin "2 №li sonata"sı, E.Nəzirovanın "Prelüdları" meydana çıxır.

Müharibədən sonrakı Azərbaycan musiqi incəsənəti özünün milli görkəminə görə çox geniş, məzmunlu və fərqlidir.

Respublikada özünəməxsus bəstəkarlar məktəbi yaradılır. Bu məktəb beynəlxalq arenada

öz layiqli yerini tuta bilib.

Azərbaycan incəsənətində Qara Qarayev (1918-1982) aparıcı şəxsiyyətdir.

Qarayevin yaradıcılığı Azərbaycan musiqi mədəniyyətinin inkişafının xarakter proseslərini özündə əks etdirib və bütün etaplardan uğurla keçib.

Klassik ənənələrə söykənərək Q.Qarayev Azərbaycan musiqisinin milli-tematik çərçivəsini genişləndirir. Bundan başqa, bəstəkar digər millətlərin folkloruna müraciət edir.

Yad milli musiqinin təbiətini dərindən öyrənib, o, özünün milli köklərinə bağlılığını müəllif sifətini saxlayaraq, yeni bir aləm yaradır.

Klassik ənənələrlə (Bax, Betxoven) orqanik surətdə bağlı olan Qarayev yaradıcılığı özündə Prokofyev və Şostokoviç təsirinin möhürünü daşıyır.

Cəsarətli novator axtarışları onu musiqidə ənənələrin davamlı inkişafına gətirib çıxarır. Milli yaradıcılığın inkişaf xüsusiyyətləri yeni sistemlər və kompozition vasitələrə müraciət etməkdən ibarətdir. Bu baxımdan dodekafoniya və neoklassisizm müxtəlif variantlarda ən təsir və cəlbedici qüvvəyə çevrilmişdir. Bunlar, əsasən bəstəkarı özlərinin estetikası ilə yox, kompozition texnikası kimi cəlb edirlər. Lakin, barokko tipində olan neoklassik modellərin təsirinin etik tərəfini də qeyd etmək lazımdır.

Bu sistemlər "təmiz" halda istifadə olunmurlar, sintezləşmiş vəziyyətdə. Dodekafoniya qədim formalarla birləşir, klassik sonata ilə (Vyana klassisizmin sistemi) və bunların hamısı xalq musiqisi təfəkkürü sistemi ilə, elementləri ilə. Buna nümunə fortepiano üçün prelüdların iş dəftəri ola bilər.

Yuxarıda adı çəkilən əsərə milli musiqi mədəniyyətinin bütün göstərici inkişafını şamil etmək olar: obrazların ümumiləşdirilməsi, klassik incəsənətdən qabaqkı (barokko) incəsənət modellərinə müraciət, ələlxüsus da ki, Baxa. Qarayev Baxın elə intonasiyalarını seçir, hansılar ki, Şərq melodiyasının ornamenti ilə müqayisə etməyə imkan verir, və nəhayət, müxtəlif sistemlərin sintezi-əksər hallarda klassik və barokko incəsənəti.

Bu sistemlərin istifadəsində bir harmoniya və struktur gözəlliyi var. Dodekafoniya, barokko, Vyana klassizmi - bütün bu sistemlərin sintezi Qarayev yaradıcılığında yüksək bədii ümumiləşdirmə məsələlərinə xidmət edirdi. Ən əsası isə - bu sistemlərin milli Azərbaycan mədəniyyəti sisteminə qovuşmasına baxmayaraq Qarayev milli bəstəkar kimi özünü təsdiqləyir. Musiqinin obrazlı-emosional əsasını və məzmununu zənginləşdirən və yeniləşdirən bir sintez, nəticədə musiqini daha "kommunikabelli" olmasına gətirib çıxarır.

"Məhz bu xüsusiyyət-kənar strukturları və üslubları "özününküləşdirmək" musiqidə realistik bünövrənin qoyulmasına şərait yaradır" (4, s. 90).

Qarayev yaradıcılığı musiqidə bütöv bir istiqamətdir, ələlxüsus incəsənətin milli formalarının inkişafında. Onun yaradıcılığı milli mədəniyyətlərin bədii tendensiyalarının inkişafını həssaslıqla qavradığı halda, həmişə "özünəməxsusluğu" qoruyub saxlayır. Bəstəkarın parlaq individuallığı texniki vasitələrin istifadəsinə formal marağın əleyhinə çıxırdı. "Qarayev özünün yaradıcı politrasını cəsarətli axtarışları ilə genişləndirirdi, yaradıcı müstəqilliyi «ənənəvilikdə" orqanik surətdə əlaqələndirirdi; o, "qəbul" olunmuş xəlqilik çərçivəsindən qorxmurdu çıxsın, o, bu anlayışı daha geniş göstərir" (5. s. 244).

Qara Qarayev gözəl melodistdir. Onun melodiyaları həmişə təravətli və təbiidirlər. Onlar da reçetativlə kantilena üzvü surətdə əlaqəlidirlər. Onun musiqisində dərin dramatik pafosla, fəlsəfi fikir incə lirika ilə birləşir.

Bəstəkarın harmonik dili özündə rəngarənglikdə psixoloji gərginliyi, tərkibində milli ladlarla klassik funksional sistemin qanunauyğunluqlarını və müasir lad harmonik vasitələrin daha mürəkkəbliləri birləşdirir.

Onun musiqisində polifoniya mühüm rol oynayır. Bəstəkarın musiqisinin metro-ritmik tərəfi çox orijinaldır.

Bəstəkar R.Şedrin qeyd edir ki, Qarayev öz üslubunu tapmışdır və musiqidə öz məktəbini yaratmışdır. Onun bir çox davamçıları vardır. Məhz Qarayev klassisizmi 60-cı illərdə başqa bəstəkarların yaradıcı axtarışlarına istiqamət vermişdi (F.Əliyeva).

Avropadan gəlmiş klassisizm, Üzeyir Hacıbəyovdan sonrakı mərhələdə Qarayev yaradıcılığında inkişaf tapmışdır və yeni keyfiyyətlər əldə etmişdir.Həmin keyfiyyət bəstəkarın üslub təfəkkürü ilə bağlıdır (F.Əliyeva. "Azərbaycan musiqisində üslub axtarışları". Bakı, 1996, s. 25).

C.Haciyevin (1917) yaradıcılığı Azərbaycan musiqi mədəniyyətinin inkişaf yolları ilə paralel formalaşırdı və təbii olaraq, o, milli üslub problemlərinin inkişafı və təkmilləşməsi proseslərini əks etdirirdi. Onun bir bəstəkar kimi formalaşmasına folklor, milli klassika, rus, sovet musiqi mədəniyyəti kimi bədii hadisələr təsir göstərmişdir. Bu ənənələrin hamısı bir bədii özünəməxsus C.Hacıyev üslubu yaratmışdır.

O, romantik bəstəkardır, filosof-bəstəkardır. Əsərlərindəki qəhrəmanlar və onların hissləri poetikləşdirilib, özünün şəxsi prizmasından keçirilir.

C.Hacıyevin musiqi dili müxtəlif xalq musiqi janrlarının xüsusiyyətlərini ümumiləşdirir. Lakin muğam janrına bəstəkar xüsusi rəğbət bəsləyir, bu da onun təfəkkür tərzinə yaxınlığı ilə bağlıdır. Eyni zamanda qeyd etmək lazımdır ki, C.Hacıyevin musiqisində folklor janrlarının xüsusiyyətləri klassik ənənələrinin orqanik sintezləşmədən savayı, müasir musiqi dilinin leksikasını da özündə əks etdirir.

Musiqinin parlaq obrazlığı və emosional çoxluğu Hacıyev təfəkkürünün əsas xüsusiyyətlərindəndir.

Bəstəkarın yaradıcılığında muğam-improvizə prinsipləri polifonik və variasiya prinsipi ilə qarşılıqlı əlaqədədirlər. Hacıyev polifonik üslubunun əsas xüsusiyyəti – müxtəlif mürəkkəb polifonik yazını milli intonasiya materialına tətbiq edir.

Simfonik əsərlərlə yanaşı C.Hacıyev özünün davamlı yaradıcılığında kamera-instrumental janrlara diqqət yetirir, eləcə də fortepiano musiqisinə.

Üslub birliyi Hacıyevin orkestr əsərlərini və bir çox kamera əsərlərini birləşdirir. Hacıyevin fortepiano üslubuna fikrin lakonik izahı, faktura zənginliyi vertuoz-konsert üslub priyomları xasdır.

Milli romantik ənənələrinin ən parlaq nümayəndəsi F.Əmirov (1922-1984) Şərq poetikasını yeni çalarla zənginləşdirmişdir.

F.Əmirov yaradıcılığının məzmunu böyükdür, öz xalqının daxili aləminin, həyatının açılması, onun çətinlikləri, onun sevincləri və s.

Onun yaradıcılığının aparıcı sferası lirikadır. Onun lirikası müxtəlif çalarlarla özünün büruzə verir. Əmirov musiqisinin emosional tərəfi bir neçə cəhətlidir – paletik romantikadan tutmuş zərif qrasiyaya qədər.

F.Əmirov elə bir bəstəkarlar nəslinə aiddir ki, onlar rus və dünya klassiklərinin təsiri altında inkişaf ediblər. Lakin onun üslubunda hər bir təsir və ənənə F.Əmirov rəngarəngliyinə və koloritinə boyanır.

Bəstəkarın musiqisi özünün tembr səslənməsi ilə, səs çalarlarının incə tapıntılarıynan özünü cəlb edir.

Onun yaradıcılığında milli xarakter çox parlaq çixiş edir və musiqisi yadda qalandır. F.Əmirov musiqisinin milli özünəməxsusluğu musiqi dilinin bütün komponentlərində özünü büruzə verir – metro-ritmində, harmoniyada, melodiyada, ladda. O, böyük ustalıqla Azərbay-

can musiqisinin xüsusiyyətlərini istifadə edir. Melodiya onun musiqili dilin xarakter xüsusiyyətidir. Öz təbiətinə görə Əmirovun melodiyaları ahəngdardır. Melodiyalarına görə o, öz xalqının musiqi dilinə çox yaxındır.

Bəstəkarın bütün əsərləri Azərbaycanın mahnı, rəqs və instrumental folkloru ilə sıx bağlıdır.

Xalq musiqisini xüsusiyyətlərini saxlayaraq folklorun lad-intonasiya əsasına arxalanıb. F.Əmirov xalqın ladqurma imkanlarını yaradıcı surətdə zənginləşdirir. Beləliklə, bir ladın içərisində gözlənilməz modulyasiyalar, ladlar arasında orijinal bağlamalar, müxtəlif ritmik kombinasiyalar əmələ gəlir. Onun fortepiano əsərləri bir çox pianoçuların, ifaçıların repertuarına daxildir. İki prelüdu romantik hissələrin çoxluğu ilə seçilir. “12 miniatür” musiqisinə təsviri obrazlığı xasdır. “Romantik sonata”da fortepianonun yeni dinamik və səs imkanları açılır. İnstrument dolu səslənir, orkestr tembrləri ilə zəngləşir.

F.Əmirovu Ü.Hacıbəyov ənənələrinin davamçısı kimi qəbul edirlər. O, xalqın musiqi təfəkkürünü, musiqi dilini elə dərindən mənimsəyir ki, onlar bəstəkarın özünün üslub elementlərinə çevrilirlər.

F.Əmirov E.Nəzirova ilə birlikdə ərəb mövzularında fortepiano ilə orkestr üçün konsert bəstələmişdir. E.Nəzirova (1928) özünü bir çox janrlarda sınamışdır, lakin məhz fortepiano əsərləri bəstəkarın dəst-xəttinin əsas xüsusiyyətlərini qabarıq şəkildə üzə çıxarmışdır.

Keçən əsrin 50-ci illərində meydana Azərbaycan bəstəkarlarının 3 cü nəsli gəlir. Bu Arif Məlikov, Vasif Adıgözəlov, Aqşın Əlizadə, Adil Bəbirov və başqaları.

Qarayev məktəbinin ən parlaq davamçısı Arif Məlikov respublikanın müasir musiqi incəsənətinin aparıcı mütəxəssisi hesab olunur.

A.Məlikovun yaradıcılığı özünü novatorluğu ilə diqqəti cəlb edir. Musiqişünas F.Əliyeva qeyd edir ki, Məlikovun yaradıcılığında millilik ümumiləşdirilmiş səviyyədə çatdırılır.

Onun ən müasir yazı normaları ilə bəstələnmiş əsərlərində milli köklərə bağlılıq bədii cəhətdən inandırıcıdır və incə işlənmişdir. Bunun kökləri A.Məlikovun tarda ifa etmək bacarığı ilə bağlıdır və muğamları nəzəriyyəçi kimi yox, ifaçı kimi bilməyindən irəli gəlir.

A.Məlikovun musiqi dilinin xarakter xüsusiyyəti mürəkkəb müasir və milli leksikanın orqanik sintezi təşkil edir.

“A.Məlikovun əsərlərindəki zəngin «lüğət fondu»nun tərkibi milli incəsənətin həmişəyaşar ənənələrindən xalq musiqisinin dərin qatlarından və müasir bəstəkarlıq yazısının (dodekafon seria texnikası prinsipləri) mürəkkəb ifadə vasitələrindən təşkil olunub.(6, s. 219)

Məlikovun musiqisi fikrin dərinliyi ideyanın həcmi, emosionallığı və lirikanın müxtəlif cəhətləri ilə özünü cəlb edir.

Qarayev məktəbinin digər nümayəndəsi V.Adıgözəlov (1935-2005) yaradıcılığında klassik ənənələrə bağlılıq daha çox özünü göstərir. Belə ki, onun re minor sonatasında tematik inkişafın prinsipi sonata ekspozisiyaların normalarına cavab verir.

V.Adıgözəlov musiqisinin məzmunu və parlaq obrazlığı onu konsert praktikasında istifadə etməyə imkan yaradır. İntonasiya məzmununda metrikada və ritmdə, lad təşkilində olan milli xarakter «uşaqlar üçün pyeslərdə zəngin pianoçu ifaçılıq priyomları ilə birləşir.

Onun kolorit sahəsində orijinal tapıntıları var. Onun yaradıcılığında əsas yeri fortepiano və simfonik janr üçün əsərlər tutur.

XX əsrin ikinci yarısında bəstəkarlar nəslinin bir nümayəndəsi də Azər Rzayevdir. Bəstəkarın diqqət mərkəzində onun müasirlərinin zəngin daxili aləmi, hissləri və fikirləridir.

Musiqisinin əsas xüsusiyyəti öz xalqının musiqisinə istinad, müasirliyi dərindən hiss etmək və klassika ilə sıx əlaqədir. Onun musiqisi melodizm və incə zövqü ilə cəlb edir.

Xalq rəqsi və muğamat onun melodiyasının və ritmikasının mənbəyidir. O bunların xarakter xüsusiyyətlərini böyük ustalıqla müasir metro – ritmik leksikası ilə birləşdirir.

Onun musiqisində müasir həyatın və məişətin bir növ romantikləşməsinə, poetik bədii ümumiləşdirilməsinə meyllilik hiss olunur. Bu onun musiqisinin lirik başlanğıcından gəlir. Öz tərəfindən, onun musiqisinə lirikanın özü də skertsoluluq və marşvariliklə zənginləşərək ona ahəng gətirir.

Azər Rzayevin musiqisində marş və skertso obrazının diapazonu genişdir, yumşaq yumordan tutmuş qroteskacan. İfadəliyin diapazonu da genişdir – ekspressiyanın və dinamikanın lirik poeziya ilə, loqika ilə. Loqika öz tərəfindən klassik ənənələri və milli-xalq musiqisini davam etdirir.

Firəngiz Əlizadə - fortepiano ilə orkestr üçün maraqlı konsertik fortepiano üçün sonatanın müəllifi.

Bir çox fortepiano əsərləri bəstələmiş Sevda İbrahimova. Onların arasında 3 fortepiano konserti, fortepiano ilə orkestr üçün fantaziya «Əhval ruhiyyələr» silsiləsi və başqa əsərlər. Onun yaradıcılığına xüsusiyyəti-milli və parlaq fərdi üslubun qovuşması təşkil edir.

İncə kolorit, şəffav akvarel instrumental yazı üslubu və bir çox başqa priyomlar Azər Dadaşovun yaradıcılığına məxsusdur.

Axırıncı onilliklər səslənmə sahəsində aparılan axtarışlarla zəngindir. Respublika bəstəkarlarının musiqi yaradıcılığı çox geniş, məzmunlu, milli simada indüvidual, eyni zamanda üslub baxımından coxşaxəlidir.

Folklor-Azərbaycan bəstəkarlarının musiqisinin ayrılmaz hissəsidir.

Əsərlərin musiqi toxumlarını milli koloritə zənginləşdirərək, xalq mahnı intonasiyalardan cəsarətli istifadə, lad dönmələri, xalq rəqslərinin müxtəlif ritmikasının istifadəsi onlara imkan verir ki, öz əsərlərində keyfiyyətçə yeni musiqi obrazları yaratsınlar.

**Məqalənin aktuallığı.** Bu məqalənin aktuallığı musiqili üslubun əsas xüsusiyyətlərinin formalaşmasında xalq musiqi ladları vacib əhəmiyyət kəsb etdirməkdədir. Məhz buna görə Azərbaycan bəstəkarlarının yaradıcılığında xalq ladları əsas və göstərici yer tutur.

**Məqalənin elmi yeniliyi.** Azərbaycan musiqisində yeni cığırların açılışı Üzeyir Hacıbəyli adı ilə bağlıdır. O, şərq və qərb musiqi mədəniyyətləri arasında körpü sala bilmişdir, xalqın topladığı və saxladığı qiymətli musiqisini bütün dünyaya göstərə bilmişdir. Məqalənin yeniliyi də məhz bununla bağlıdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədəki tövsiyələrlə tanış olmaq həm müəllim, həm tələbələr üçün faydalı ola bilər.

## Ədəbiyyat

1. Сафарова З. Музыкально - эстетические взгляды. Уз.Гаджибекова. М., Сов. Композитор, 1973.

2. Гараев Г. Незабываемый учитель, великий художник. М.: Литература и искусство, 1958.

3. Гараев Г. Доклад III сьезду композиторов Азербайджана. 1968.

4. Фарбштейн А. Теория реализма и проблемы музыкальной эстетики. Л.: Музыка, 1973.

5. Шостокович Д, Отличная композиторская школа. М,: Дружба народов, 1957.

6. Qasımova S., Bağırova N. Azərbaycan Sovet musiqi ədəbiyyatı. Bakı: Maarif, 1986.

7. Тагизаде А. Агшин Ализаде. Баку, 1986.
8. Мамедова Б. О некоторых ладовых особенностях гормонии азербайджанских композиторов. Ученые записки. Серия XIII №1, Б., 1973.

**З.С. Султанова**

## Стилистическая многогранность музыкального творчества композиторов Азербайджана

### Резюме

В статье рассматриваются стили композиторов Азербайджана с начала XX века по настоящее время. Анализируются произведения, написанные для фортепиано.

**Z.S. Sultanova**

## Stylistic multifaceted of music creative of Azerbaijan composers

### Summary

Stylistic multifaceted of music creative of Azerbaijan composers. Style of composers sine beginning of XX century till how house been examining Works written for piano are analyzed.

**Redaksiyaya daxil olub:** 07.05.2020